# Bu ömür görüş yerimiz

## Sona Vəliyevanın lirik duyğular və vətənpərvərlik hissləri aşılayan poeziyası haqqında

**Öz imzasını Azərbaycan ədəbiyyatı tarixinə yazdıran şairələrimiz çoxdur. Əsrlərdən üzü bəri yol gələn bədii ədəbiyyatımızı Məshəti Gəncəvi, Xan qızı Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Ağabəyim Ağa, Aşıq Pəri, Heyran xanım olmadan təsəvvür etmək mümkün deyil. Sonrakı dövrlərdə Mirvarid Dilbazi, Hökümə Billuri, Əzizə Cəfərzadə, Nigar Rəfibəyli kimi şairə və yazıçılarımız dəyərli əsərlər yaradıblar.**

Bu gün estafeti uğurla davam etdirən xanımlarımız ədəbiyyatımıza yeni töhfələr bəxş edirlər. İstedadlı şairələrimizdən söhbət düşəndə adı öndə gələnlərdən biri də Sona Vəliyevadır.

Filologiya üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist, Ali Media və "Qızıl Kəlmə" mükafatları laureatı Sona Vəliyeva sanballı elmi araşdırmalar aparan alim və naşirdir. "Azərbaycançılıq ədəbi-estetik təlim kimi", "Milli Dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası" kitablarının, təkcə ölkəmizdə deyil, xaricdə də tez-tez çap olunan məqalələrin müəllifidir. Onun xüsusi ilə Hüseyn Cavidin yaradıcılığının tədqiqi ilə bağlı qələmə aldığı məqalələr böyük mütəfəkkir və şairin bədii irsinin öyrənilməsi, təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Sona xanım ilk növbədə istedadlı şairdir. Məhz ona görə də bu yazıda şairənin poeziyası, poetik düşüncələri barədə fikirlərimizi bölüşməyə çalışacağıq. Sona Vəliyevanın qələmə aldığı şeirlər, nəşr etdirdiyi "Çəhrayı rəngli dünyam", "Arazbarı", "Türkün gəlişi", "Dünya görüş yerimiz", "Qapına gəldim, İlahi", "Dünya Tanrı biçimdədir" kitablarını oxuduqca istedadlı bir şairənin könül dünyası ilə təkbətək qalırsan. Yeri gəlmişkən, şairənin "Dünya Tanrı biçimdədir" kitabı professor Elçin İsgəndərzadənin rəhbərlik etdiyi "Vektor" Beynəlxalq Elmlər Akademiyasının Şahmar Əkbərzadə adına Ədəbiyyat mükafatına layiq görülüb.

**Bu ömür görüş yerimiz,**
**Görüşdük, mən, atam, anam.**
**Mən Orda mələkdim, Allah,**
**Yerdə ADAM adlanmışam.**

**Bəzən yad gəlir buralar,**
**Ağaclar, dənizlər, çaylar.**
**Hanı deyilən doğmalar?**
**Gəlib gördüm tək qalmışam.**

Sona xanım Vəliyevanın şeirlərində klassik ədəbiyyatımızın ruhu aydın duyulur, Tanrıya bağlı bir yaradıcı insanın düşüncələri əks olunur:

**Kimə qaldı yurd yeri?**
**Əlim çatmır, əl verin...**
**Ürəyi qəm nisgilli,**
**Qapına gəldim, İlahi!**

**Yol tikana bələndi,**
**Naxışlar ilmələndi,**
**İçim-dərd qıfılbənddi,**
**Qapına gəldim, İlahi!**

İstedadlı şairənin lirik şeirlərində insan, onun daxili dünyası, ətrafda baş verənlərə münasibəti dolğun əksini tapır. Lakin oxucu kədər notlarına bürünmür, ümidsizliyə qapanmır, əksinə nikbin ovqata köklənir:

**Ölçüsüz, biçisiz bu doğmalığın**
**Bilirsə sirrini, qoy Tanrı desin.**
**Məni bu dünyanın təklənməyindən**
**Qurtara bilərdi tək sənin əlin.**
**Günəş istisində çovğun, boran var,**
**İçimdə min qışın küləyi əsir.**
**Əlim çarpazlanır sinəmə sarı**
**Görürəm ürəyin əlimdə əsir.**




Sona Vəliyevanın bədii yaradıcılığını izləyənlər yaxşı bilir ki, şairə şeirlərində milli ruh, vətənpərvərlik, ikiyə bölünmüş Vətən, işğal altında qalan yurd yerlərimiz, bütöv Azərbaycan mövzularını daim önə çəkir:

**Vətən də alın yazımız,**
**Qorumasaq, pozulacaq.**
**Alından pozulan yazı**
**Günahlarla yozulacaq.**

Sona xanımı fəqrləndirən əsas cəhətlərdən bir də odur ki, ümummilli dərdlərimizdən bəhs bu şeirlərdə pafos, yalançı hay-küy yoxdur. Yəqin elə ona görə də "Türkün duası", "Ərdəbilə gəldim", "Qaçqın yataqxanası", "Sərhəd adamları", "Qardaşım Kefli İsgəndərə məktub" silsiləsindən olan şeirlər böyük maraqla oxunur:

**Ümidim ürəyin son teli, Allah,**
**Qorxuram üzülə, gedib çatmayam.**
**Qarabağ bağrımın qara səbridir,**
**Qar yağır, don vursa, səbrim çatlayar.**

**Səninçün qaradam, qartopudur qış,**
**Mənim həsrətimə qarlar yağacaq.**
**Şuşanın, Laçının ümidi donub,**
**Qələbə yazında yarpaqlayacaq.**

Sona Vəliyevanın elmi və bədii yaradıcılığı barədə görkəmli alimlər, nüfuzlu ictimai xadimlər mətbuatda, ədəbi məclis və yığıncaqlarda fikirlərini bildiriblər. Akademik, Atatürk Mərkəzinin direktoru Nizami Cəfərovun, akademiklər Kamran Əliyevin və Teymur Kərimlinin, professor Cahangir Məmmədlinin, Xalq şairi Sabir Rüstəmxanlının, yazıçı Yunus Oğuzun, tənqidçilər Əsəd Cahangirin, Əkbər Qoşalının, Fərid Hüseynin, jurnalistlər Flora Xəlilzadənin, Əbülfət Mədətoğlunun çoxsaylı məqalə və çıxışlarında Sona Vəliyevanın elmimizə, ədəbiyyatımıza verdiyi töhfələrdən geniş bəhs edilib.

**Son vaxtlar bizə bəlli olmayan səbəblərdən ədəbi tənqid Sona Vəliyevanın yaradıcılığına biganəlik göstərir. İnanmaq istərdik ki, Sona xanım elmi məqalələri, təzə şeirləri və nəsr əsərləri ilə oxucuların görüşünə gələcək, ədəbi ictimaiyyət, mətbuat onun yaradıcılığına yenidən xüsusi diqqət ayıracaq.**

**Etibar CƏBRAYILOĞLU**

# TÜRK TARİXŞÜNASLIĞINA "AZƏRBAYCAN" QƏZETİNDƏN BAXIŞ

**Tarix saxtalaşdırmanı sevmir. Ona görə ki, tarixi yazan tək bir adam deyil - bir millətdi, bir xalqdı. Və deməli, bu gün bütün mətbuatın, bütün yazı-pozu adamlarının, daha çox da tarixçilərin hər birinin öz baxış bucağı altında görüb, dəyər verib kitablara köçürdükləri 50-100 il bundan sonra başqa bir tarixçinin ələyində ələnəcək. Və məhz həmin an gerçək tarix üzə çıxacaqdı. Göz önündə olan bir gerçəklik var. Torpaqlarımızı işğal etmiş, böyük Ermənistan iddiası ilə az qala bütün qonşularına meydan oxuyan ermənilər uydurduqları tarixin hər zaman əziyyətini çəkirlər. İstər ən yüksək məqamlarda, istər elmi araşdırmalarda, disskusiyalarda onların saxta tarixi sabun köpüyü kimi əriyib gedir. Məhz bu aspektdən çıxış edəndə onda məlum olur ki, 70 il dünyaya meydan oxuyan Sovet imperiyasının tarix elmi də çox böyük həqiqətlərə kölgə salmaqda israrlı olub.**

Sovet tarixçilərinin, ümumiyyətlə, sovet tarix elminin gerçək tarixə iki baxışı birmənalıdı. Mənə görə bu tarix alt qat üçün, yəni gələcək zamanlar üçün gerçəyi öyrənib arxivlərdə saxlayıb və bir də gerçəyi öz ideologiyasına uyğun şəkildə yazıb təbliğ edibdi. Ona görə də bu gün arxivlərdən başqa bir tarix üzə çıxıb, ədəbiyyatlardan, dərsliklərdən başqa bir tarix. Tələbə dostum, tarix üzrə fəlsəfə doktoru Vaqif Şirinoğlunun bu günlərdə maraqlı bir kitabı çap olunub.




*AMEA-nın Tarix İnstitutunda çalışan Vaqif Şirinoğlu bu günə qədər Azərbaycan tarixinin müxtəlif dövrlərini araşdırmaqla məşğul olubdu. Onun daha çox üz tutduğu zaman kəsiyi sosialist inqilabına qədərki dövrdü. Yəni ermənilərin törətdiyi soyqırımlar, qətliamlar, torpaqlarımızda törədilən vəhşiliklər, eləcə də həmin dövrün saxtalaşdırılmış tarixinin əsl gerçək variantını üzə çıxarmaq. Bəli, son günlərdə Türkiyədə işıq üzü görmüş tarix üzrə elmlər doktoru, dosent Vaqif Şirinoğlunun "Türkiyə 1918-1920-ci illərdə məğlubiyyətdən qələbəyə doğru" kitabı üç dildə, bir cilddə ortaya qoyulub. Yəni kitab Azərbaycan, ingilis və rus dillərində olmaqla bir kitab halında nəşr edilib.*

Mən bu kitabı vərəqlədikcə azçox bildiyim həqiqətlərlə başqa bir gerçək müstəvidə qarşılaşdım. Kitabın elmi redaktoru, dövlət mükafatı laureatı, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi Yaqub Mahmudov, rəyçiləri tarix üzrə fəlsəfə doktorları, dosentlər İlqar Niftəliyev və Natiq Məmmədzadədir. Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunmuş bu kitabda Türkiyə tarixinin 1918-ci il oktyabr ayının 30-da imzaladığı "Mudros" sazişi tarixi baxımdan şərh olunmaqla təqdim edilib. Və tarixçi-araşdırmaçı Vaqif Şirinoğlu həmin zaman kəsiyini məhz mətbuat səhifələrindəki informasiyalar əsasında işıqlandırıb. Həmin dövrün, daha çox isə "Azərbaycan" qəzetinin xəbərlərinə istinad edən Vaqif Şirinoğlu qardaş Türkiyədə baş verən hadisələri xronoloji ardıcıllıqla bir araya gətirib.

**Bu kitabla tanış olan hər bir kəs, xüsusilə tarix elminə maraq göstərən hər bir tələbələr bilgilərdən kifayət qədər yararlana bilərlər. Düşünürəm ki, Vaqif Şirinoğlunun bu mükəmməl elmi kitabı adi oxucudan tutmuş tarixşünaslığımızın, xüsusilə türk tarixşünaslığının öyrəncilərinə yaxşı bir hədiyyədir.**

Əbülfət MƏDƏTOĞLU

### *MSK daha 4 seçki məntəqəsinin nəticəsini ləğv etdi*

**Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında 81 saylı Beyləqan seçki dairəsindən deputatlığa namizədliyi qeydə alınan Məmmədov Anar Sədrəddin oğlu və digərlərinin müraciətinə baxılıb.**

**Adalet.az xəbər verir ki, müraciət barədə MSK üzvü İlham Məmmədov məlumat verib.**

**O bildirib ki, şikayətçilər səsvermə günü pozuntuların olduğunu əsas gətirərək həmin dairənin nəticələrinin ləğvini tələb edib: "Araşdırma zamanı şikayətçinin təqdim etdiyi 5 protokoldan yalnız 31 saylı məntəqəyə aid olan protokolda uyğunsuzluqların olduğu müəyyən edilib. Bu səbəbdən həmin məntəqənin nəticələri ləğv edilməlidir".**

**MSK sədrinin müavini Rövzət Qasımov isə təklif edib ki, 1, 4, 6 saylı məntəqələrdə pozuntular var və onlar da ləğv olunmalıdır.**

**Beləliklə MSK 1, 4, 6, 31 saylı məntəqələrin nəticələrinin ləğv olunması barədə qərar qəbul edib.**